# Sülh güclü dövlətin, ədalət isə qalib xalqın haqqıdır...

**2026-cı il 5 fevral Azərbaycanın müasir tarixində tarixi ədalətin bərqərar olduğu gün kimi yaddaşlara yazıldı. Necə ki, 8 Noyabr döyüş meydanında qazanılmış Zəfərin rəmzinə çevrilmişdi, bu tarix də hüququn, beynəlxalq ədalətin və dövlət iradəsinin qələbə çaldığı gün kimi tarixə yazıldı.**

Azərbaycanda uzun müddət davam edən və ictimai şüurda artıq "Azərbaycanın Nürnberq prosesi" kimi dəyərləndirilən məhkəmə prosesi demək olar ki, başa çatdı.

Onilliklər ərzində sülh və insanlıq əleyhinə ağır cinayətlər törətməkdə təqsirli bilinən, mülki əhaliyə qarşı zorakılıqlarda, etnik təmizləmə və terror aktlarında iştirak etmiş erməniəsilli şəxslər, o cümlədən Arayik Harutyunyan məhkəmənin hökmü ilə ömürlük azadlıqdan məhrum edildilər.

Bu hökm təkcə ayrı-ayrı şəxslərə verilmiş cəza deyil. Bu, cəzasızlıq anlayışına, işğala, zorakılıq və nifrət ideologiyasına qarşı hüquqi və mənəvi mövqenin ifadəsidir. Azərbaycan dövləti bir daha nümayiş etdirdi ki, müharibə və insanlıq əleyhinə cinayətlər nə unudulur, nə də zamana tabe olur - gec-tez hüquqi müstəvidə öz qiymətini alır.

Cəmiyyətin bu hökmü necə qətiyyət və ədalət hissi ilə qarşıladığı da təsadüfi deyil. Çünki bu qərar təkcə milli hüququn deyil, beynəlxalq hüququn da tələblərinə cavab verir.

Qurbanların haqqının tanınması, ədalətin bərpası və hüquqi məsuliyyətin təmin edilməsi davamlı sülhün əsas şərtidir.



Məhz bu məqamda fundamental bir həqiqət bütün aydınlığı ilə ortaya çıxır: ədalət olmadan sülh mümkün deyil. Qarabağda törədilmiş cinayətlərə hüquqi qiymət verilmədən, tarixi ədalət bərpa olunmadan bölgədə uzunmüddətli və etibarlı sülhdən danışmaq mümkün deyildi.

Bu baxımdan, Bakıda elan olunan hökm region üçün yeni mərhələnin - hüquqa və ədalətə əsaslanan sülh mərhələsinin başlanğıcıdır.

Bu reallıq fonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin təşəbbüsü ilə təsis edilmiş nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunması tam məntiqi və ardıcıl görünür. Bu mükafat insan hüquqlarının müdafiəsi, mədəniyyətlərarası dialoqun təşviqi və qlobal həmrəyliyin möhkəmləndirilməsi sahəsində göstərilən xidmətlərə görə təqdim olunur və yalnız müharibəni dayandıranlara deyil, ədalətli sülhü təmin edən liderlərə verilir.

Prezident İlham Əliyev hərbi qələbəni hüquqi və siyasi məsuliyyətlə tamamlayaraq sülhü beynəlxalq hüquq normalarına əsaslanan legitim müstəvidə qurdu. Qarabağda törədilmiş ağır cinayətlərin məhkəmə yolu ilə araşdırılması və cəzalandırılması bu siyasi iradənin və insan mərkəzli yanaşmanın ayrılmaz tərkib hissəsidir.

Beləliklə, iki mühüm proses bir-birini tamamlayır:

- Qarabağda törədilmiş cinayətlərə görə verilən ədalətli və qəti hökm,

- və həmin ədaləti mümkün edən siyasi xəttə beynəlxalq etimadın ifadəsi olan sülh mükafatı.

Bu, tarix qarşısında Azərbaycanın haqqının tanınmasıdır.

Bu, Zəfərin hüquqi və mənəvi tamamlanmasıdır.

Və bu gün bir daha sübut olunur ki, sülh güclü dövlətin, ədalət isə qalib xalqın haqqıdır...

***Bahar MURADOVA,***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri***

Azərbaycan. - 2026.- 7 fevral (№ 24).- S.13.